# Azərbaycanın ilk poliqrafçı alimi - Şəddat Cəfərov



Həmin gün çox gözəl, xatirələrdə yaşayacaq gün kimi tarixə düşdü ..Ətirli yaz səhərində,müqəddəs cümə günündə Astarada Şəddad Cəfərovla- Azərbaycanın ilk poliqrafçı alimi ilə Mərkəzi kitabxanada keçirilmiş görüşün iştirakçısı kimi düşüncələrimi oxucularla bölüşmək istəyirəm. (Xatırladım ki,tədbirdə fədakar mədəniyyət işçisi Fərbiyyə Şabanova, Rayon tarix-diyarşünaslıq muzeyinin direktoru Gülzar İsmayılıva, Şəddat müəllimin qızı Sevinc xanım və qardaşı Fərhad müəllim çıxış edərək Şəddat müəllimin peşəkarlığından mehriban,qayğıkeş ata, qardaş və xeyirxah insan olmağından danışdılar.

Bu sətirlərin müəllifi də poliqrafçı alim haqqında məruzə etmişdi.

Tədbiri Lənkəran regional mədəniyyət idarəsinin baş məsləhətçisi,Astara üzrə nümayəndəsi Şadoğlan Bayramov açmış və mənalı ömür yolu keçmiş qonaq haqqında məlumat vermişdir)

Öz adını mənalı ömrü ,dolğun fəaliyyəti ilə paytaxtımızda təmsil edən hörmətli insan haqqında saatlarla,günlərlə danışmaq olar.Kamil insan kimi həyatda izi olan Şəddat müəllim ömrünün yarıdan çoxunu vasitə axtarmaqla fəaliyyətdə olub,kitab işini ,çapın texnikasını sevib və can-başla gəncləri təlimləndirib,onları sevilən ,lazımlı peşəyə yönəltməklə gərgin zəhmət çəkib. İşgüzar,təcrübəli peşəkar,xeyirxah insanın yaşadığı ömrün səhifələri elə mənalı ,elə dolğundu ki..

Bir təsadüfdən poliqrafiyaya gəlişi onu sonralar bu sahəyə məhəbbətlə bağlamış və ona böyük hörmət qazandırmışdı. Əlbəttə, bu böyük insan haqqında burda yazdıqlarım çox cüzi olsa belə özümə məsuliyyət və şərəf bilirəm. İqtisadiyyat üzrə fəlsəfə doktoru Şəddat Muğdad oğlu Cəfərov 1940 cı ildə Bakı şəhərində anadan olmuşdur.Sinqrafçı peşəsi ilə əmək fəaliyyətinə başlayandan sonra kəsici,sex ustası,texnoloq,sex rəisi və mətbəənin baş mühəndisi vəzifəsinə qədər yüksəlmişdir.



Şəddat Cəfərov 1969 ildə A P U -ni,1971 -ci ildə Moskva Poliqrafiya institunu,1975 -ci ildə həmin institunun aspiranturasını bitirmişdir.1976-1978 illərdə"Yeni Kitab "mətbəəsində,1978-1985 ci illərdə "Kommunist"nəşriyyatında baş direktor müavini olub

Sonralar taleyin gərdişindən "Ulyanovskaya Pravda","Azərbaycan "nəşriyyatında baş direktor vəzifəsində çalışmışdır. 2002 -ci ildən isə "3 saylı Bakı Mətbəəsi"-ASC-də direktor vəzifəsində çalışır. Yazıçılar və Jurnalistlər birliyin üzvü ,Mətbuat Şurasında Ahıllar məclisi in üzvü və "Qızıl Qələm" mükafatı laureatıdır. Şəddat Cəfərov öz missiyasını tək poliqrafiya ilə bitmiş hesab etmir. O, 150 yaxın elmi məqalə və monoqrafiyasının, insanları mənəvi saflığa səsləyən çoxsaylı didaktik və yumoristik hekayələrin , eyni zamanda"Kitab gözəlliyinin mahiyyəti",Ötən illərin əhvalatları",(üç dildə)"Əzəldən bağlıyam sözə "ədəbi düşüncələrin (5 cilddə) kitabların müəllifidir. Şəddat müəllim haqqında çoxlu elmi, publisistik məqalələr,kitablar yazılıb.

Yazıçı Fatma Həsənqızı(ruhu şad olsun)"Acılı -Şirinli günlər",həmkarlarım-"Söz jurnalının baş redaktoru Sevda Əlibəyli"İlk Poliqrafçı Alim","İsaq Əmənullayev "Mənalı poliqrafiya ömrü","Kredo qəzetinin baş redaktoru şair Əlirza Xələfli və Ceyhun Zallı ilə " Böyük Portretin işığı"(iki cilddə) kitablarlı yazıblar. Onu da xatırladım ki,istər "Söz "jurnalında,istər "Kredo "qəzetində Şəddat müəllim haqqında dəfələrlə maraqlı oçerklər işlənilib. Şəddat müəllim gözəl ailə başçısı kimi hörmətli şəxsiyyətdir. Mərhumə ömür -gün dostu -Mirfatma xanımla 3 oğlan 1 qız böyüdüblər-övladların dördü də ali təhsilli ziyalı kimi fəaliyyət göstərirlər. Doqquz nəvə bir nəticə sahibi olan Şəddat müəllim sevilən ,qayğıkeş babadır-nəvəsi adaşı olan Şəddat Praqa şəhərində uğurlu və önəmli iş adamıdır.

Şəddat müəllimi tanıyandan şən zarafatcıl, təbəssümlü,-yüksək mədəniyyəti olan mənalı ömür yaşayan bir insan kimi yaddaşıma köçüb.Ötən il "Vətən Aşiqləri"kitabımın məhz bu kamil in sanın rəhbərlik etdiyi mətbəədə ışıq üzü görməsi sevincimə səbəb oldu-onun alicənab ,qo aqpərvər,kollek-



tivdə sevilən ,hörmətli şəxs olduğunun bir daha canlı şahidi oldum. "İş görmək istəyən vasitə axtarar,görməyən bəhanə"-bu İşgüzar insanın aforizmə çevrilən sözünə istinadən tədbirdə iştirak etməklə onun haqqında nəsə yazmaq mənə necə deyərlər vasitə oldu -axı çoxdan yazmaq istəyində idim..

S.A Poliqrafçı alimlə ictimaiyyətin görüşünü təşkil edən Lənkəran regional Mədəniyyət idarəsinin Astara üzrə nümayəndəsi Şadoğlan Bayramova,mədəniyyət fədakarı Fərbiyyə Şabanovaya və əməyi olan hər kəsə təşəkkür etməyə dəyər Həmin gün Poliqrafçı Alim rayon tarix-diyarşünaslıq muzeyinə və muzeyin Kakalos kəndində olan filalına ozünün haqqında yazılmış və yazdığı kitabları hədiyyə etdi Şəddat Cəfərov həmin gün Ərçivan qəsəbəsində "Qədim Ləm"-də "Yanar Bulaq"da olmuş yerli camaatla ünsiyyət qurmuş və Astarada içtimaiyyətlə görüşündən məmnun qaldığını bildirmişdir

Biz də sizinlə-elimizin hörmətli şəxsiyyəti ilə qürur duyur ,fəxr edirik(Şəddat müəllimin nəsil səcərsi Lənkəranın Gərmətük kəndi ilə bağlıdır.)

Hörmət və sayqılarla:

***Gülnar* Əsədli**
***jurnalist***